**UOT 327; 930.22**
**DOİ:**

# BOSNİYA VƏ HERSEQOVİNADA HİBRİD SÜLH QURUCULUĞU PROSESLƏRİNDƏ ALİ NÜMAYƏNDƏNİN İŞTİRAKI

**Elmar İsmayılzadə**
doktorant, Azərbaycan Turizm və Menecment Universiteti, **Azərbaycan**
e-mail: ismaylzadelmar@gmail.com
https://orcid.org/0009-0005-7789-3956

**Xülasə.** Məqalə hibrid sülh quruculuğu paradiqması və bunun Bosniya və Herseqovinada Ali Nümayəndə tərəfindən tətbiq olunmasının nəticələrindən bəhs edir. Müasir dövrdə Bosniya və Herseqovinada sülh quruculuğuna yeni çağırışlar Bosniya və Herseqovinada Ali Nümayəndənin legitimliyi probleminin aktuallaşmasına səbəb olmuşdur. Bu da hibrid sülh quruculuğu sahəsində Ali Nümayəndənin fəaliyyətinin araşdırılmasını zəruri etmişdir.

**Məqsəd:** Bosniya və Herseqovinada Ali Nümayəndənin hibrid sülh quruculuğu sahəsində fəaliyyətini dəyərləndirmək.

**Metodologiya:** Tədqiqatın aparılması zamanı analiz və sintez metodları istifadə olunmuşdur.

**Elmi yenilik:** Tədqiqat ilk dəfə hibrid sülh quruculuğu konsepsiyası əsasında Bosniya və Herseqovinada Ali Nümayəndənin beynəlxalq və lokal legitimliyi problemini ortaya qoymuşdur.

**Açar sözlər:** hibrid sülh quruculuğu, Bosniya və Herseqovina, Ali Nümayəndə, legitimlik, beynəlxalq

**Giriş.** 1995-ci ildə Bosniya və Herseqovinada müharibəni başa çatdırmış Deyton sazişinin imzalanmasından sonra sülh quruculuğuna cəlb olunmuş aktorlardan biri də Ali Nümayəndə Ofisi institutu oldu. 11 sentyabr hadisələrindən sonra ABŞ-ın Bosniya və Herseqovina konfliktinə diqqətinin azalması nəticəsində Avropa İttifaqı burada başlıca sülh quruculuğu aktorlarından birinə çevrildi. Avropa İttifaqının liberal sülh quruculuğundan hibrid sülh quruculuğuna üstünlük verməsi Ali Nümayəndənin siyasətində dəyişikliklərə səbəb oldu.

Eyni zamanda 2022-ci ildən başlanmış Ukrayna müharibəsi nəticəsində dəyişən beynəlxalq geosiyasi vəziyyət Ali Nümayəndənin beynəlxalq legitimliyinin sorğulanmasına səbəb oldu. Beynəlxalq ictimaiyyətin Bosniya və Herseqovina probleminə, eyni zamanda Ali Nümayəndənin legitimliyi məsələsinə həll yolu kimi hibrid sülh quruculuğu təklif etməsi siyasi elmlər üzrə tədqiqatçılar arasında debatlara səbəb oldu.

Tədqiqatın hazırlanmasında I.P.Watts "Peace or democracy: peacebuilding dilemmas to transition from civil wars"; J.Kustermans, T.Sauer və B.Segaert "A Requiem for peacebuilding?" və J.Graef "Practicing post-liberal peacebuilding: legal empowerment and emergent hybridity in Liberia" kitablarına, N.Beglerović "The Role, expectations and challenges of High Representative in Bosnia and Herzegovina" və A.Orosz "High Representative in Bosnia and Herzegovina: is the more interventionist way the right way to go?" məqalələrinə üstünlük verilmişdir.

Tədqiqat Bosniya və Herseqovinada Ali Nümayəndənin fəaliyyəti ilə lokal və beynəlxalq dinamikaları əlaqələndirərək hibrid sülh quruculuğunun elementlərini özündə birləşdirmişdir. Məlumatların əldə olunmasında son dövrdə Bosniya və Herseqovinada baş verən siyasi proseslər nəzərə alınmışdır.

Tədqiqat beynəlxalq ictimaiyyətin Bosniya və Herseqovina konfliktində qarşılaşdığı dilemmaları Ali Nümayəndə və hibrid sülh quruculuğu timsalında izah etməklə elmi-təcrübi əhəmiyyət daşıyır.

**Hibrid sülh quruculuğu post-liberal sülh quruculuğu paradiqması kimi** Post-münaqişə dövründə istifadə edilən yanaşmalardan biri olan sülh quruculuğu insanlar arasında rifah və inamı yüksəltmək və sülhü möhkəmlətməyə xidmət edəcək strukturları müdafiə və müəyyən etməyə ətraflı

cəhdlər kimi başa düşülür (19, s. 8). İlk sülh quruculuğu praktikalarında liberal yanaşmalara üstünlük verilsə də, bəzilərindən gözlənilən nəticə əldə olunmadı (5, s. 212-213). Bu, post-liberal sülh quruculuğu paradiqması kimi, hibrid sülh quruculuğunun önə çıxmasına səbəb oldu.

Hibrid sülh quruculuğu özündə beynəlxalq və lokal, liberal və illiberal (liberal olmayan) amilləri birləşdirir (12, s. 50). Bu anlayışın formalaşmasında post-kolonial tətqiqatların rolu da qeyd edilməlidir (9, s. 24). Bu tip sülh quruculuğunun effektiv həyata keçirilməsi xarici və daxili aktorlar arasında konsensusun qurulmasından asılıdır (12, s. 50). Hibrid sülh quruculuğuna keçid dörd bir-biri ilə əlaqəli olan elementdən asılıdır: riayət etmək; liberal strukturların təşviqedici gücləri; liberal sülhyaratma proseslərinə lokal aktorların münasibəti; alternativ fikirlər təqdim etməsi və öz sülhyaratma formalarını saxlaması (12, s. 104).

Hibrid sülh quruculuğunu dəstəkləyən və tənqid edən yanaşmalar mövcuddur. Tənqidi yanaşmanın tərəfdarları hibrid sülh quruculuğunu liberal sülhə qarşı çıxan yanaşma kimi dəyərləndirirlər. Onlar daha çox Əfqanıstan və Kamboca nümunələrinə diqqət çəkirlər (7, s. 15). Dəstəkləyən yanaşma isə “hibrid sülh idarəetməsi” ideyasını irəli sürür (9, s. 25-26). Bu yanaşma hibrid sülh quruculuğunun lokal legitimlik yaradaraq konfliktdə sabitliyə gətirib çıxardığı fikrini müdafiə edir (9, s. 26).

Hibrid sülh quruculuğuna nəzərən iki əsas yanaşma mövcuddur: pozitiv və neqativ hibrid sülh quruculuğu yanaşmaları. Pozitiv hibrid sülh quruculuğu Qərb siyasi dəyərləri ilə ənənəvi formaları özündə ehtiva edir. Neqativ hibrid sülh quruculuğu isə liberal və hibrid sülh quruculuğunun bir-birindən kəskin fərqləndiyini göstərir (6, s. 311).

Hibrid sülh quruculuğunun həyata keçirilməsi zamanı bir sıra risklər ola bilər. Hibrid sülh quruculuğunun vətəndaş müharibəsindən sonra tətbiq olunması anokratiyanın yaranmasına səbəb ola bilər (20, s. 5). Hibrid sülhün təşkil etdiyi liberal olmayan dəyərlər bəzən klientelizm və neopatrimonalizm meyillərini artıra bilər (20, s. 49). Hibrid sülh quruculuğunda “lokal amilləri şişirdici” yanaşmalar riski vardır. Bu yanaşmalarda “beynəlxalq amilləri pisləmə” mövqeyi önə çıxır. Bununla belə, xarici müdaxilənin bir sıra hallarda arzuolunan olduğu fikirləri də mövcuddur (10, s. 43).

**Ali Nümayəndə Ofisi Bosniya və Herseqovinada hibrid sülh quruculuğu aktoru kimi**. Bosniya və Herseqovinada Ali Nümayəndə Ofisi (The Office of High Representative) institutunun hüquqi əsasları 1995-ci ildə Deyton sazişinin imzalanması ilə qoyuldu. Bu sazişə görə, Ali Nümayəndənin səlahiyyəti sülh quruculuğunun mülki aspektlərini əhatə edirdi. Bu təşkilat Sülhü Həyata Keçirmə Şurası tərəfindən formalaşdırılmışdır. Ali Nümayəndə fəaliyyətinin ilkin dövrlərində məhdud səlahiyyətlərə malik idi və kompromis strategiyasına daha çox üstünlük verirdi. 1997-ci ildə keçirilmiş Bonn konfransında Ali Nümayəndəyə əlavə səlahiyyətlər verildi. Bununla da bu təşkilatın Bosniya və Herseqovinaya müdaxilə imkanları artırıldı (3, s. 403-404).

Bosniya və Herseqovinada post-münaqişə dövründə əvvəl liberal sülh quruculuğuna üstünlük verilmişdir. Liberal sülh quruculuğunun “qeyri-demokratik” vasitələr istifadə etməsi (8, s. 22), ölkəni “protektoratı”na çevirməsi və “qeyri-legitim” sayılması kimi iddialar beynəlxalq ictimaiyyətin və onun təmsilçisi sayılan Ali Nümayəndənin hibrid sülh quruculuğu strategiyalarına meyillənməsinə səbəb olmuşdur (1, s. 93).

Bosniya və Herseqovinada Ali Nümayəndənin hibrid sülh quruculuğunu həyata keçirməsində məcburetmə strategiyası başlıca rol oynayır. Bu strategiya “Bonn səlahiyyətləri” vasitəsilə həyata keçirilir. Bu strategiyanın mənfi məqamlarını lokal sistemə maneə törədilməsində və lokal müqavimət meyillərində görmək olar (18, s. 36). Bosniya və Herseqovinada ilk Ali Nümayəndə vəzifəsini daşımış K. Bildt “Bonn səlahiyyətləri”nin məcburedici cəhətini tənqid edənlərdən idi (3, s. 408). Bu strategiyanın müsbət məqamlarına isə 2002-2006-cı illərdə Ali Nümayəndə olmuş P. Eşdaunun bir sıra uğurlu fəaliyyətlərini daxil etmək olar (14, s. 138).

Bosniya və Herseqovinada hibrid sülh quruculuğunda beynəlxalq və lokal amillərin rolu qeyd edilməlidir. Ali Nümayəndənin beynəlxalq və lokal legitimliyi problemi bu amillərin təsir etdiyi məsələlər daxilindədir (14, s. 141). İslahatların vaxtında və effektiv tətbiq olunması üçün ABŞ və Avropa İttifaqının “Serb Respublikası”na, Avropa İttifaqının isə Ali Nümayəndəyə təzyiqlər etməsi hibrid sülh quruculuğunda beynəlxalq amillərin rolunu göstərir. Konfliktdə hibrid sülh quruculuğuna

münasibətdə baş vermiş Qərb dövlətləri və siyasi elitalar arasında fikir ayrılığı bu amillərin mənfi cəhətlərinə daxildir (14, s. 143).

Bosniya və Herseqovinada Ali Nümayəndənin apardığı hibrid sülh quruculuğu zamanı uğurlu və uğursuz məqamlar ortaya çıxmışdır. Seçki qanununun qəbul olunması və Ali Nümayəndənin qurumlararası vasitəçi rolunu oynaması hibrid sülh quruculuğunun uğurlarından sayılır (3, s. 403). İslahatların tətbiq olunmasına vaxtında əməl etməmək hibrid sülh quruculuğunun effektiv həyata keçirilməsinə əngəl törədir.

Bosniya və Herseqovinada hibrid sülh quruculuğunun həyata keçirilməsində bir sıra çatışmazlıqlar vardır. Ali Nümayəndə lokal aktorları təşviqetmə baxımından məhdud rol oynayır. Bu rol əsasən Bosniya və Herseqovinanın Avropa İttifaqına üzvlüyü ilə məhdudlaşır. Lokal aktorların isə alternativ fikirlər təqdim etməkdə razılaşa bilməməsi hibrid sülh quruculuğunun effektiv həyata keçirilməsinə şərait yarada bilmir.

Çin və Rusiya son zamanlarda Ali Nümayəndə Ofisinin beynəlxalq legitimliyinə zərbə vuran dövlətlər sayılır. Hər iki dövlətin BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olması təşkilata təsir mexanizmini artırır. 2021-ci ildə Çin və Rusiya BMT Təhlükəsizlik Şurasına Ali Nümayəndə Ofisinin ləğv olunması haqqında qətnamə layihəsi irəli sürdülər. Hər iki dövlət təşkilatın Bosniya və Herseqovinada sülh quruculuğunun effektiv nəticələnməsi üçün kifayət qədər çalışmadığını və ləğv olunmasının vacib olduğunu irəli sürdülər. Tənqidlər “Bonn qüvvələri”nə qarşı da yönəldilirdi. Qətnamə layihəsi Qərb dövlətləri tərəfindən dəstəklənmədi (13). Bu qərar Ali Nümayəndə Ofisinə münasibətdə beynəlxalq çoxtərəfliliyin azalmasına və bu məsələ ətrafında dövlətlər arasında siyasi qütbləşmənin artmasına səbəb oldu.

2022-ci il Ukrayna müharibəsinin başlanmasından sonra Bosniya və Herseqovinada Ali Nümayəndə Ofisinin səlahiyyətləri daha çox sorğulanmağa başlamışdır. Bu təşkilata qarşı tənqidi mövqedə duran əsas aktor Bosniya və Herseqovinanın tərkib hissəsi sayılan Serbiya Respublikası olmuşdur. 2023-cü ilin iyununda Bosniyada Serbiya Respublikası rəhbərliyinin Ali Nümayəndə Ofisinin qərarlarını heçə saymaq haqqında qərar qəbul etməsi ölkə daxilində siyasi ziddiyyətləri daha da artırmışdır (15).

2023-cü ilin iyulunda Ali Nümayəndə X. Şmidt Bosniya və Herseqovinada cinayət məcəlləsində dəyişiklik etmək üçün “Bonn qüvvələri”ni istifadə etdi. Bu qərarın tətbiq olunmasına maneə törədən dövlət məmuru 6 ay ilə 5 il arası müddətə həbs olunacaqdı. Bosniya serblərinin lideri M. Dodikin bu qanunu imzalamaqdan imtina etməsi ona qarşı məhkəmə işinin açılmasına səbəb oldu (4). Məhkəmə prosesi hələ də davam edir.

2024-cü ilin martında Ali Nümayəndə X.Şmidtin Bosniya və Herseqovinanın seçki haqqında qanununda dəyişiklik etmək haqqında qərar qəbul etdi. Bu qanuna düzəliş etməkdə məqsəd kimi seçki prosesini daha effektiv həyata keçirmək müəyyənləşmişdir. Diplomat açıqlamasında Ali Nümayəndə Ofisinin Bosniya və Herseqovinanın Avropa İttifaqına üzv olduqdan sonra ləğv olunacağı fikrini söyləmişdir. Bu fikirdən belə nəticə çıxarmaq olar ki, Ali Nümayəndə Ofisinin fəaliyyət göstərməsi Bosniya və Herseqovinanın Avropa İttifaqına üzvlük standartlarına özünü uyğunlaşdırması və Avropa İttifaqının bu yolda ölkəni dəstəkləməsindən asılıdır (16).

X.Şmidt yeni seçki qanununa dəyişiklik zamanı seçkilərə namizədlikdə müharibə canilərinin iştirakını qadağan etmişdir. Bosniya serblərinin lideri M. Dodik qərara mənfi yanaşdı və “dövlətdən ayrılmaq” təhdidindən istifadə etdi (11). Avropa İttifaqı qərara münasibətində islahatların “xarici məcburetmə” yolu ilə deyil, siyasi rəhbərliklər tərəfindən dəstəklənərək həyata keçirilməsinin vacib olduğunu qeyd etdi (2).

Bosniya və Herseqovinada baş verən son siyasi proseslərdən belə nəticə çıxarmaq olar ki, Ali Nümayəndə Ofisi ləğvinə gətirib çıxaracaq islahatların tətbiq olunmasında xüsusilə serblər tərəfindən lokal müqavimətlə qarşılaşır və bu təşkilatın beynəlxalq legitimliyi sual altındadır. Bu siyasi gərginlikdə ABŞ Avropa İttifaqına nisbətən daha çox Ali Nümayəndəni dəstəkləyən siyasət həyata keçirir. Avropa İttifaqı sülh quruculuğunun lokal dinamikaları nəzərə alaraq tədricən tətbiq olunmasını müdafiə edir.

Yuxarıdakı müzakirə edilən fikirlərə əsasən müəyyən etmək olar ki, Bosniya və Herseqovina neqativ hibrid sülh quruculuğu modelinə malikdir. Bu modelin xüsusiyyətləri öz əksini konfliktdə

lokal və beynəlxalq amillər arasında rəqabətdə (17, s. 67-68) və 1999-2002-ci illər arası dövrdə Ali Nümayəndə olmuş Petrişin “asılılıq sindromu” ifadəsində tapır (3, s. 409).

**Nəticə.** Nəticədə, Bosniya və Herseqovinada neqativ hibrid sülh quruculuğundan pozitiv sülh quruculuğuna keçmək üçün beynəlxalq və lokal aktorlar arasında əməkdaşlığın olması zəruridir. Ali Nümayəndə Ofisinin hibrid sülh quruculuğunu həyata keçirməkdə məcburedici strategiyalara üstünlük verməsi tənqid olunur. Bu aktorun fəaliyyətində konfliktə münasibətdə uzlaşdırma və əməkdaşlıq strategiyalarına da yer ayırması lazımdır.

Müasir dövrdə Qərb və qeyri-Qərb blokları arasında ziddiyyətlərin kəskinləşməsi bu halın gerçəkləşməsinə maneə törədən amillərdən biridir. Ali Nümayəndə 1990-cı illərdəki beynəlxalq siyasi nüfuzunu hal-hazırda itirib. Qərb dövlətləri onu “müvəqqəti keçid orqanı” olduğunu, Rusiya və Çin isə bu təşkilatın gərəkli olmadığını vurğulayırlar. Ancaq təşkilat konfliktdə tənzimləyici rolunu oynadığına görə fəaliyyətini hələ də davam etdirir. Beləliklə, Bosniya və Herseqovinanın Avropa İttifaqı üzvlüyünəqədərki tarixində bu təşkilatın hibrid sülh quruculuğunda rol oynacağı aşkardır.

## İstifadə olunmuş ədəbiyyat

1. Ambarkov, N. Role of The Office Of The High Representative (OHR) in The Security Sector Reforms (SSR) in Bosnia following The Dayton Agreement –lessons learned from the army and police reforms // International Scientific Conference: Security System Reforms as Precondition for Euro-Atlantic Integrations, Skopje: University “St. Kliment Ohridski” Bitola Faculty of Security,- 04 - 06 June 2018, - 2018,- p. 90-102.
2. Baccini, F. Cold EU reaction to electoral reforms imposed by High Representative for Bosnia: “measures of last resort”: [Electron resource] / eunews.it. – 2024. - URL: https://www.eunews.it/en/2024/03/27/cold-bosnia-measures-of-last-resort/.
3. Beglerović, N. The Role, expectations and challenges of High Representative in Bosnia and Herzegovina // Prague: Politics in Central Europe,- 2022. Vol. 18, No. 3, - p. 397-432.
4. Belton, P. Bosnia ‘on brink of collapse’ as EU watches on: //brusselssignal.eu.–2024.- URL: https://brusselssignal.eu/2024/01/bosnia-on-brink-of-collapse-as-eu-watches-on/.
5. Campbel, S. A Liberal peace?: the problems and practices of peacebuilding / S. Campbell, D. Chandler and M. Sabaratnam ; - London & New York: Zed Books,- 2011. – 272 p.
6. Carey, H. F. Peacebuilding paradigms: the impact of theoretical diversity on implementing sustainable peace / H. F. Carey.- Cambridge: Cambridge University Press,2020.403 p.
7. Cogan, M. S. Alternative perspectives on peacebuilding: theories and case studies / M. S. Cogan, H. Sakai ; - Cham: Palgrave Macmillan,- 2022. – 355 p.
8. Džuverović, N ‘To romanticise or not to romanticise the local’: local agency and peacebuilding in the Balkans // Conflict, Security & Development, - 2021. Vol. 21, No. 1,- p. 21-41.
9. Graef, J. Practicing post-liberal peacebuilding: legal empowerment and emergent hybridity in Liberia / J. Graef. – London: Palgrave Macmillan UK,- 2015.- 208 p.
10. Hellmüller, S. The Interaction between local and international peacebuilding actors: partners for peace / S. Hellmüller.- Cham: Palgrave Macmillan,- 2018.- 233 p.
11. Kurtic, A. Bosnia’s international overseer imposes new rules to curb election fraud: [Electron resource] / balkaninsight.com. – 2024. - URL: https://balkaninsight.com/2024/03/26/bosnias-imposes-new-rules-to-curb-election-fraud/.
12. Kustermans, J. A Requiem for peacebuilding ? / J. Kustermans, T. Sauer, B. Segaert ; - Cham: Springer International Publishing Palgrave Macmillan, - 2021.- 247 p.
13. Lederer, E. M. Russia and China try to end Bosnia’s international overseer: [Electron resource] / apnews.com. - 2021. - URL: https://apnews.com/article/europe-russia-china-united-nations-0ca800a4fb55c22962415d64bc6ffa14.
14. Orosz, A. High Representative in Bosnia and Herzegovina: is the more interventionist way the right way to go? // Budapest: Foreign Policy Review,- 2023. Vol. 16, No. 1,- p. 134-145.
15. Ozturk, T. Bosnian Serb leader reiterates his refusal to accept legality of Bosnia's High Representative: [Electron resource] / aa.com.tr. – 2023. -URL: https://www.aa.com.tr/en/europe/-reiterates-his-refusal-to-accept-legality-of-bosnias-high-representative-/3075219.

16. Ozturk, T. Bosnia's high representative makes ‘technical changes’ to election law: [Electron resource] / aa.com.tr. – 2024. - URL: https://www.aa.com.tr/en/europe/bosnias-high-representative-makes-technical-changes-to-election-law/3175833.

17. Richmond, O. P. Liberal peace transitions : between statebuilding and peacebuilding / O. P. Richmond and J. Franks; Edinburgh: Edinburgh University Press,- 2009.- 230 p.

18. Tepšic,´ G. and Džuverovic, N., Bosnia and Herzegovina: [Electron resource] / - 2018. - URL: https://www.elgaronline.com/configurable/content/edcoll$002f97817834-00010.xml.

19. Waldman T. , Conflict resolution, peacebuilding and youth: [Electron resource] / academia.edu. – 2009. – URL: https://www.academia.edu/3200682/Conflict_and_Youth.

20. Watts, I. P. Peace or democracy: peacebuilding dilemmas to transition from civil wars / I. P. Watts.- London & New York: Routledge,- 2023.- 311 p.

## УЧАСТИЕ ВЫСОКОГО ПРЕДСТАВИТЕЛЯ В СМЕШАННЫХ ПРОЦЕССАХ МИРОСТРОИТЕЛЬСТВА В БОСНИИ И ГЕРЦЕГОВИНЕ

**Эльмар Исмаилзаде**

**Резюме.** В статье рассматривается парадигма гибридного миростроительства и последствия ее реализации Высоким Представителем в Боснии и Герцеговине. Новые призывы к миру в Боснии и Герцеговине подняли вопрос о легитимности Высокого Представителя, что потребовало изучения деятельности Высокого Представителя в области смешанного миростроительства.

**Цель:** оценить деятельность Высокого Представителя в области смешанного миростроительства в Боснии и Герцеговине.

**Методология:** в исследовании использовались методы анализа и синтеза.

**Научная инновация:** впервые исследование выявило проблему международной и местной легитимности Высокого Представителя в Боснии и Герцеговине на основе концепции гибридного миростроительства.

**Ключевые слова:** гибридное миростроительство, Босния и Герцеговина, Высокий Представитель, легитимность, международное

## THE PARTICIPATION OF THE HIGH REPRESENTATIVE IN HYBRID PEACEBUILDING PROCESSES IN BOSNIA AND HERZEGOVINA

**Elmar Ismayilzadeh**

**Abstract**. The article deals with the paradigm of the hybrid peacebuilding and the consequences of its implementation by the High Representative in Bosnia and Herzegovina. New calls for peace in Bosnia and Herzegovina have raised the issue of the legitimacy of the High Representative in Bosnia and Herzegovina. This required to research the activities of the High Representative in the field of hybrid peacebuilding.

**Purpose:** to assess the activities of the High Representative in the field of hybrid peacebuilding in Bosnia and Herzegovina.

**Methodology**: Analysis and synthesis methods have been used in the study.

**Scientific novelty**: For the first time, the study has revealed the problem of the international and local legitimacy of the High Representative in Bosnia and Herzegovina based on the concept of hybrid peacebuilding.

**Keywords:** hybrid peacebuilding, Bosnia and Herzegovina, High Representative, legitimacy, international

**Rəyçi: dos. Zeynəddin Şabanov**